# MİNGƏÇEVİR: Uğurlar çox, vəzifələr isə böyükdür

❒ ***Şuranın geniş iclasında şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramovun "2016-cı ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr" barədə hesabatı dinlənildi.***





Natiq qeyd etdi ki, mingəçevirlilər üçün 2016-cı ilin ən əlamətdar və yaddaqalan hadisəsi sentyabr ayında ölkə Prezidenti İlham Əliyevin şəhərimizə səfəri olub: "Dövlət başçısı səfəri zamanı yeni binaya köçürülmüş Tarix Muzeyinin açılışında iştirak edib, Toxuculuq Kombinatının ərazisində inşa olunacaq Sənaye Parkının təməlini qoyub, şəhər ictimaiyyəti ilə görüşüb. Şəhərdə aparılan abadlıq işləri ilə tanış olmaq üçün əsaslı yenidən qurulan "Füzuli" parkına və genişləndirilən "Sahil" parkına baxış keçirən dövlət başçımız görülmüş işlərə yüksək qiymət verib və əhalini narahat edən problemlərlə maraqlanıb. Uzun illər təmirsiz istismar olunan çoxmənzilli yaşayış binalarının dam örtüklərinin mövcud vəziyyətini öyrəndikdən sonra cənab prezident 100 binanın dam örtüyünün əsaslı təmirinə maliyyə yardımı ayrılması barədə müvafiq sərəncam imzalayıb".

Rayon rəhbəri qeyd etdi ki, dövlət başçısının bilavasitə Mingəçevirdə olarkən verdiyi göstəriş və tapşırıqlar şəhər icra hakimiyyəti və aidiyyəti qurumlar tərəfindən gələcək fəaliyyət proqramı kimi qəbul olunub. Ötən ilin sosial-iqtisadi yekunlarına gəlincə isə, il ərzində abadlıq və quruculuq sahəsində kifayət qədər işlər görülüb. Məsələn, şəhərin Maqomayev, Xətai, Nizami, Sabir, Hacıbəyov, Vidadi, Vaqif və Dilarə Əliyeva küçələrinə, 1, 5, 10 və 12 saylı məhəllələrdə yol və səkilərə 102 min kvadratmetr yeni asfalt örtük salınıb və 12 min metr uzunluğunda səki daşları düzülüb. Əhalinin çoxsaylı müraciətlərini nəzərə alaraq 13, 14, 16, 75, 87 və 94-cü məhəllələrdə, Dilarə Əliyeva küçəsində və Səməd Vurğun meydanında işıqlandırma sistemləri yenidən qurulub. Əsaslı təmir işləri aparılan 1, 7 və 9 nömrəli tam orta məktəblərdə işlər yekunlaşdırılıb.

Prezident sərəncamına əsasən, 100 çoxmənzilli yaşayış binasının dam örtüklərində əsaslı təmir işlərinə başlanılıb və hazırda işlər tamamlanmaq üzrədir. "Azərbaycan Respublikası Regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın Mingəçevirə aid bəndləri uğurla icra olunub və aidiyyəti qurumlara hesabatlar təqdim edilib.

İlin yekunundakı hesabatlarda məlum olub ki, şəhər üzrə 353 milyon 370 min manatlıq ümumi məhsul istehsal edilib. Bunun 211 milyon manatı sənaye müəssisələrinin payına düşür. İstehsal olunmuş sənaye məhsulunun 199 milyon manatı və ya 94 faizi elektrik enerjisi istehsal edən Azərbaycan İstilik Elektrik Stansiyası və SES silsiləsi MMC-lərin payına düşür. Ümumilikdə il ərzində bu iki müəssisədə 7,3 milyard kilovatsaat elektrik enerjisi istehsal olunub.

Əsas kapitala 51,8 milyon manat investisiya yönəldilib, 43,6 milyon manatlıq tikinti-quraşdırma işləri görülüb, nəqliyyat sahəsində 4,5 milyon manatlıq, rabitə müəssisələri tərəfindən 1,4 milyon manatlıq müxtəlif xidmətlər göstərilmişdir. Ticarət və xidmət sahələrində il ərzində istehlakçılara göstərilən xidmətlər müvafiq olaraq 90,4 və 54,5 milyon manatlıq olub. Fəaliyyət göstərən digər sənaye müəssisələrində – "Azneftemaş", "Mingəçevir İzolit" və "Akkord Mingəçevir Maşınqayırma zavodu" ASC-lərdə ümumilikdə sabit iş rejimi təmin edilib və il ərzində 11 milyon manatlıq məhsul istehsal olunub.

Xidmət sahələrinin fəaliyyətindən söz açan natiq dedi ki, Yaşıllaşdırma və Sanitar Təmizlik İdarəsi tərəfindən hesabat dövründə 4 mindən çox ağac, 18 min ədəd müxtəlif növ çiçək şitili əkilib, 1220 metr yeni suvarma xətləri çəkilib. İşıqlanma idarəsi tərəfindən 17 min metr uzunluğunda zədələnmiş kabel dəyişdirilib, şəhərin ərazilərinin lazımi qaydada işıqlandırılması təmin edilib.

Vurğulandı ki, ötən il Şəhər Elektrik Şəbəkəsi tərəfindən hesabat ilində 8 yeni transformator quraşdırılıb, 19 min metr SİP kabel çəkilmiş və zədəli naqil dəyişdirilib, 198 ədəd dəmir-beton, 466 ədəd metal dayaq basdırılıb. Əhalinin istehlak etdiyi elektrik enerjisinin haqqı tam ödənilib.

Qaz istismar sahəsi üzrə 4,5 min metr yeraltı və yerüstü qaz xətti çəkilib, 9 ədəd yeni qaztənzimləyici, 3 ədəd yeni siyirtmə quraşdırılıb, 4369 ədəd qaz sayğacı yenilənib. Hesabat dövründə əhali sektorunun istehlak olunmuş qaza görə ödənişi 92 faiz təmin edilib.

Şəhər həyatının bütün sahələri kimi, təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin də fəaliyyəti, inkişafı, maddi-texniki bazasının gücləndirilməsi daim şəhər icra hakimiyyətinin diqqətində olub. Noyabr ayında şəhərin ümumtəhsil məktəblərinin 40 şagirdi "Ölkəmizi tanıyaq" devizi altında Quba, Qusar, Xaçmaz rayonlarına səfər edib. Azərbaycan Prezidentinin "Əhalinin tibbi müayinədən keçirilməsi" göstərişinə əsasən 76 mindən çox şəhər sakini tibbi müayinədən keçirilib.

Niyazi Bayramov sonda qeyd etdi ki, cənab Prezidentin tapşırıq və göstərişlərini əsas götürərək, cari ildə şəhər miqyasında reallaşdırılacaq bütün işlərin icrasına diqqət artırılacaq. Bu sırada Sənaye Parkının ilin sonunadək istifadəyə verilməsi, orada işlərin sürətli və keyfiyyətli aparılması, "Asan həyat" idarəsinə inzibati binanın tikintisinə yaxından köməklik göstərilməsi, kiçik və orta sahibkarlığın inkişafında fiziki və hüquqi şəxslərə yardım edilməsi, işsizliyin azaldılması, istilik təchizatı sistemlərinin əhatə dairəsinin genişləndirilməsi, Mirzə Ələkbər Sabir və Səməd Vurğun küçələrində çoxmənzilli yaşayış binalarının fasad hissələrinin və ümumi istifadə yerlərinin təmirinin sürətləndirilməsi, yaşayış massivlərində görülən abadlıq və asfaltlanma işlərinin miqyasının genişləndirilməsi və digər tədbirlər vardır.

Rayon rəhbəri tənqid və özünütənqid şəraitində keçən toplantının sonunda dedi: "Bu gün biz şəhərdə 2016-cı ildə görülən işləri müzakirə edərək 2017-ci ildəki vəzifələr haqqında danışdıq. Hesabatdan göründüyü kimi, görülən işlərlə yanaşı, həllini gözləyən problemlər də vardır. İştirakçılar tərəfindən söylənilən təkliflər ciddi nəzarətə götürüləcək, şəhər icra hakimiyyətindən, idarə, müəssisələrdən asılı olanların həllinə çalışılacaq, mərkəzi dövlət orqanlarından asılı olanlar barəsində müvafiq qaydada məsələ qaldırılacaq. Bir sözlə, bu il qarşımızda daha ciddi vəzifələr durur".

Yığıncaqda Prezident Administrasiyasının məsul işçisi Vəfadar Bağırov iştirak edib.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***